# Bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi üzrə işlər davamlı aparılır

Fevralın 24-də Milli Məclisin 2023-cü ilin yaz sessiyasında növbəti plenar iclası keçirilib.



İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, Birinci Qarabağ müharibəsinin gedişində erməni şovinistləri xalqımıza qarşı bir sıra soyqırımı cinayətləri törədiblər. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində törədilmiş soyqırımı aktı isə XX əsrdə insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biridir. 613 nəfər dinc azərbaycanlı milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilib, 487 nəfər şikəst edilib, 1275 sakin girov götürülərək amansız işgəncələrə məruz qalıb. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi isə bu günədək məlum deyil.

Spikerin təklifi ilə Xocalı şəhərində, digər yaşayış məntəqələrində erməni şovinizminin, vəhşiliyinin qurbanı olmuş soydaşlarımızın xatirəsi birdəqiqəlik sükutla yad edilib, onlara Allahdan rəhmət diləkləri ifadə olunub.

Gündəliyin təsdiqindən sonra iclasda cari məsələlərin müzakirəsi aparılıb. Cari məsələlərdə komitə sədri Ziyafət Əsgərov, deputatlar Kamal Cəfərov, Elnur Allahverdiyev, Fazil Mustafa, Elman Məmmədov, Naqif Həmzəyev, Elman Nəsirov, Bəhruz Məhərrəmov, Sahib Alıyev, Afət Həsənova, Vahid Əhmədov çıxış ediblər.

→ 2

# Bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi üzrə işlər davamlı aparılır

*Əvvəli 1-ci səh.*





Millət vəkilləri Xocalı soyqırımını ermənilərin tarixboyu azərbaycanlılara qarşı həyata keçirdikləri etnik təmizləmə və işğalçılıq siyasətinin ən qanlı səhifələrindən biri kimi xarakterizə ediblər, Xocalı soyqırımının beynəlxalq arenada tanıdılması ilə bağlı fikirlərini bölüşüblər. Deputatlar həmçinin Beynəlxalq Ədalət Məhkəməsinin Ermənistan tərəfinin Azərbaycana qarşı verilmiş vəsatətini rədd edən qərarını şərh ediblər, Laçın dəhlizindən qeyri-humanitar məqsədlər üçün istifadə olunmasının qarşısının alınması, Türkiyədə baş vermiş dəhşətli zəlzələnin qurbanlarına yardımların göstərilməsi, Azərbaycanda tikililərin zəlzələyə davamlılığının artırılması və digər məsələlərlə bağlı qeydlərini və təkliflərini səsləndiriblər.

Sonra gündəlikdəki məsələlərin müzakirəsi başlayıb. İlk olaraq S.İ.Bəktaşinin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi haqqında Milli Məclisin qərar layihəsi müzakirəyə çıxarılıb. Məsələ ilə bağlı Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. Əli Hüseynli Səadət Bəktaşinin peşəkarlığını və işinə məsuliyyətlə yanaşmasını, həmçinin zəngin iş təcrübəsini qeyd edərək, onun Naxçıvanda həyata keçirilən məhkəmə-hüquq islahatlarının dərinləşməsinə öz töhfəsini verəcəyinə inandığını deyib.

Milli Məclisin qərar layihəsi səsə qoyularaq qəbul edilib.

Daha sonra iclasda bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi dinlənilib. İllik məruzəni diqqətə çatdıran ədliyyə nazirinin müavini Vilayət Zahirov 2022-ci ildə də bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi üzrə aparılan işlərdən söz açıb, dövlət başçısının təsdiq etdiyi "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulduğu kimi, yerli özünüidarəetmə sisteminin müasir innovativ cəmiyyətin tələblərinə uyğunlaşdırılması üzrə tapşırıqların icrası istiqamətində zəruri tədbirlərin görüldüyünü bildirib.

O qeyd edib ki, ötən il 95466 bələdiyyə aktı hüquqi ekspertizadan keçirilib, onların da 95,6 faizi qanunvericiliyə uyğun hesab edilib. Habelə bələdiyyələrin fəaliyyəti ilə bağlı 4180 müraciətə baxılıb. Ümumilikdə həm aktlar, həm də müraciətlər üzrə inzibati nəzarət icraatı zamanı qanunvericiliyin tələblərinə zidd olan 3799 aktla bağlı bələdiyyələrə təkliflər verilib, onların da 2044-ü ləğv edilib, 1399-u dəyişdirilib, təmin olunmayan 40 təklif üzrə isə məhkəmələrdə iddia qaldırılıb.

Ötən ildə bələdiyyələrin 68 vəzifəli şəxsi inzibati məsuliyyətə cəlb edilib, aparılmış araşdırmalar zamanı 27 halda ciddi qanun pozuntuları ilə bağlı aidiyyəti üzrə istintaq orqanlarına müraciət olunub, həmin materiallardan 12-si üzrə cinayət işi başlanılıb.

Parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov məsələ ilə bağlı komitənin rəyini təqdim edib. Bildirib ki, 2022-ci ildə də regional idarəetmə sahəsində mühüm tədbirlər həyata keçirilib. Qeyd olunub ki, bələdiyyə qanunvericiliyinin təkmilləşdirilməsi sayəsində bu sahədə müəyyən uğurlar əldə olunub. Belə ki, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətlə bağlı göstəricilərlə tanış olduqda, bu istiqamətdə xeyli diqqətçəkən məqamlara rast gəlinir. Otən illə müqayisədə hüquqi ekspertizadan keçirilən bələdiyyə aktlarının sayı artmış, qanunsuz bələdiyyə aktlarının ləğvi üçün daha çox tədbir görülmüşdür.

Diqqətçəkən məsələlərdən biri də bələdiyyə fəaliyyəti ilə bağlı müraciətlərə, xüsusilə şəhid ailələrinin, müharibə iştirakçılarının müraciətlərinə daha həssas yanaşılmasıdır. Komitə sədri bildirib ki, bələdiyyələrdə aşkarlıq və hesabatlılığın təmini, yerli özünüidarəetmədə rəqəmsal infrastrukturun təkmilləşdirilməsi məsələləri də diqqətdən kənarda qalmayıb.

Komitə sədri bələdiyyə seçkilərinin keçirilməsi, bələdiyyələrin birləşdirilməsi, üzvlərinin sayının azaldılması, böyük şəhər bələdiyyələrinin yaradılması, bələdiyyələrə məxsus ərazilərin xəritələrinin bələdiyyələrə verilməsi, bələdiyyələrin maliyyə dayanıqlığının artırılması kimi məsələlərlə bağlı təkliflərini səsləndirib.

Sənədin müzakirəsində komitə sədri Hicran Hüseynova, deputatlar Rəşad Mahmudov, Kamran Bayramov, Razi Nurullayev, Aydın Mirzəzadə, Səbinə Xasayeva, Rauf Əliyev, Azər Badamov məruzənin əhatəli hazırlandığını bildiriblər, bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin və onların maliyyə dayanıqlığının artırılması kimi məsələlərlə bağlı fikirlərini açıqlayıblar. Ədliyyə nazirinin müavini Vilayət Zahirov deputatların səsləndirdikləri sualları cavablandırıb, qaldırılan bəzi məsələlərə aydınlıq gətirib.

Yekunda bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi nəzərə alınıb.

Sonra İnsan hüquqları komitəsinin sədri Zahid Oruc "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 16 nömrəli protokolunun təsdiq edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verib. Bildirib ki, 2001-ci ildə Avropa Şurasına üzv olan Azərbaycan 2002-ci ildə "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanı ratifikasiya edib. Daha sonra ölkəmiz konvensiyanın bir sıra protokollarına qoşulub. Konvensiyanın 2013-cü il oktyabrın 2-də Strasburq şəhərində imzalanmış 16 nömrəli protokolunun təsdiqi isə Azərbaycan Respublikasının Ali Məhkəməsinə və Konstitusiya Məhkəməsinə prinsipial məsələlərə dair məsləhət rəyləri almaq üçün Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət etmək imkanı yaradır.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov rəhbərlik etdiyi komitənin məsələ ilə bağlı müsbət rəy verdiyini və sənədin Azərbaycanın Avropa İnsan Hüquqları Məhkəməsi ilə əməkdaşlığını yeni səviyyəyə qaldıracağını bildirib.

Qanun layihəsi qəbul edilib.

Daha sonra iclasda üçüncü oxunuşda müzakirə olunan Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, "Kredit ittifaqları haqqında", "Tütün və tütün məmulatı haqqında", "Banklar haqqında" və "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə, "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında, Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri qəbul olunub.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Sosial sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrini təqdim edib. Komitə sədri deputatların birinci oxunuşda səsləndirdiyi bəzi suallara və təkliflərə münasibətini bildirib. O, Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun investisiya fəaliyyətinə hüquqi təminatlar yaratmaq məqsədi ilə hazırlanan qanun layihələrinin qanunvericiliyə uyğun olmasından, təklif olunan dəyişikliklərə əsasən, adıçəkilən fondların investisiya fəaliyyətinin səmərəli şəkildə təşkilindən, maliyyə dayanıqlığının artırılmasından, yarana biləcək risklərin idarə olunmasından danışıb.

Musa Quliyev "Sosial sığorta haqqında" qanunda müxtəlif maddələrdə anlayış müəyyən edən normaların vahid maddədə birləşdirilərək, qanunun 1-ci maddəsinin yeni redaksiyada verildiyini qeyd edib. Diqqətə çatdırılıb ki, investisiyaya yönəldilən sərbəst vəsait, investisiya gəlirləri və onun istifadə olunmamış qalığı Azərbaycan Respublikasının Mərkəzi Bankında açılmış hesaba toplanacaq və uçotu ayrıca aparılacaq.

Bildirilib ki, "İşsizlikdən sığorta haqqında" qanunun 3 maddəsinə 7 dəyişiklik təklif olunur. Bunlar işsizlikdən sığorta fondu, investisiya gəliri və sərbəst vəsait anlayışlarının qanuna daxil edilməsi ilə əlaqədardır.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri də ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyin növbəti 8 məsələsi birinci oxunuşda olan qanun layihələridir.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Elektroenergetika haqqında" qanun layihəsini (birinci oxunuş) təqdim edib. O bildirib ki, qanun layihəsi Azərbaycan Prezidentinin 2017-ci il 4 aprel tarixli "Sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında" Fərmanının 4.2-ci bəndinin icrası məqsədi ilə hazırlanıb. Komitə sədri deyib ki, qanun elektrik enerjisinin istehsalı, saxlanması, ötürülməsi, paylanması, təchizatı, idxalı, ixracı və istehlakı ilə bağlı elektroenergetika subyektləri, istehlakçılar və elektroenergetika sektorunda fəaliyyət göstərən dövlət orqanları arasında yaranan münasibətləri tənzimləyəcək, elektroenergetikanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edəcək. Qanunun qəbulu ölkəmizdə rəqabət mühitində və antiinhisar siyasətində rəqabətli və azad sahibkarlığı təşviq etməklə həm iqtisadiyyatın inkişafını, həm də istehlakçıların rifahını, məhsul və xidmətlərin keyfiyyətini təmin edəcək. Habelə növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair 5 milli prioritetdən ikisini - dayanıqlı artan rəqabətli iqtisadiyyat və təmiz ətraf mühit və yaşıl artım ölkəsi üzrə strateji çərçivəyə uyğun olmaqla yanaşı, 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının hər iki prioritet üzrə tədbirlər planına daxil edilmiş məsələlərin icrasına öz müsbət təsirini göstərəcək.

Diqqətə çatdırılıb ki, layihə hazırlanarkən beynəlxalq təcrübə, bazar iqtisadiyyatının mövcud inkişaf səviyyəsi və perspektiv inkişaf istiqamətləri nəzərə alınıb. Layihədə subyektlərin ayrılması, yəni elektrik enerjisi istehsalçısının, ötürücünün, paylayıcının və satıcının ayrı-ayrı subyektlər olması müəyyən edilir. Bu subyektlər arasında yaranan münasibətlərin müqavilə əsasında həyata keçirilməsi bazar iqtisadiyyatının mahiyyətinə uyğun olmaqla, layihənin tələblərindən biri kimi göstərilir. Habelə bazara girişin təmin edilməsi, yəni elektroenergetika subyektlərinin elektrik enerjisi bazarında sərbəst iştirakı nəzərdə tutulur. Layihədə topdan və pərakəndə satış bazarlarının subyektləri müəyyən edilib və malın alqı-satqısı, xidmətlərin göstərilməsi proseduru da öz əksini tapıb.

Bildirilib ki, layihədə əsas məsələlərdən biri də tənzimləyici orqanın yaradılmasıdır. Tənzimləyici orqan elektroenergetika sektorunda qiymətləri, tarifləri müəyyənləşdirən, elektrik enerjisi bazarını tənzimləyən orqan kimi çıxış edəcək. Digər məsələ sərbəst istehlakçıların elektrik enerji təchizatçısını seçmək hüququnu əldə etməsidir. Layihəyə əsasən istehlakçı həmin ərazidə fəaliyyət göstərən və sərfəli qiymət və xidmət təklif edən istənilən təchizatçı ilə müqavilə bağlaya bilər. Sənəddə habelə elektrik enerjisinin istehsalı və təchizatı sahəsində rəqabət mühitinin formalaşmasına imkan verən müddəalar nəzərdə tutulub. Qeyd edilir ki, elektroenergetika subyektlərinin və istehlakçıların elektrik enerjisi bazarında dəyişikliklərə uyğunlaşması, o cümlədən azad rəqabət mühitinin tətbiqi və subsidiyalaşmanın ləğv edilməsi məqsədi ilə elektrik enerjisi bazarında elementlərin tətbiqi prosesi 3 mərhələdə həyata keçirilir.

Komitə sədri deyib ki, qanunun qəbulu biznes subyektlərinin bazara girişinin və bazarda inkişafın qarşısını alan maneələrin aradan qaldırılmasına, təbii inhisar sahələrinin mərhələli şəkildə rəqabətli bazara keçidinin formalaşmasına, rəqabət mühitinin təsir dairəsinin genişləndirilməsinə, ölkənin rəqabət indeksinin yüksəlməsinə töhfə verəcək.

Deputatlar Vüqar Bayramov, Qüdrət Həsənquliyev, Etibar Əliyev, Aydın Mirzəzadə sənəd barədə fikirlərini və bəzi qeydlərini açıqlayıblar. Komitə sədri Sadiq Qurbanov səsləndirilən məsələlərə aydınlıq gətirib.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra spiker bildirib ki, növbəti 4 məsələ Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə yaxın qanun layihələridir.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi (birinci oxunuş), "Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında" Azərbaycan Respublikası Qanununun ləğv edilməsi (birinci oxunuş) və "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi (birinci oxunuş) barədə qanun layihələrini təqdim edib. Bildirib ki, "Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında" qanunun ləğv edilməsi və "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında" qanunda dəyişikliklərin mahiyyəti "Prokurorluq haqqında" qanunda nəzərdə tutulan dəyişikliklərdən irəli gəlir. Qeyd edilib ki, qanunla təsdiq edilmiş Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında Əsasnaməyə uyğun olaraq, xidməti vəsiqə prokurorluq işçisinin şəxsiyyətini, xüsusi rütbəsini və tutduğu vəzifəni təsdiq edir, habelə əsasnamədə prokurorluq işçisinin xidməti vəsiqəsinin təsviri müəyyən edilir. Əsasnamə ilə müəyyən edilir ki, prokurorluq işçisinin xidməti vəsiqəsinə rəsmi xarakter və hüquqi qüvvə verilməsi məqsədilə onun rəsmiləşdirilməsi baş prokurorun və ya onun müavininin səlahiyyətinə aid edilir.

Təqdim edilən qanun layihəsinə görə, xidməti vəsiqədə əks olunan məlumatların xarakteri də nəzərə alınmaqla, habelə xidməti vəsiqənin təsviri ilə bağlı məsələlərə dəyişikliyin edilməsi zamanı operativliyin təmin edilməsi məqsədilə prokurorluq işçilərinin xidməti vəsiqəsinin nümunəsinin təsdiq edilməsinin baş prokurorun qanunla həll etdiyi məsələlərin dairəsinə aid edilməsi təklif olunur.

Sonra Əminə Ağazadə Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 165-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim formasının təsviri"ndə dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) diqqətə çatdırıb. Bildirilib ki, layihənin əsas məqsədi prokurorluq orqanları işçilərinin xüsusi geyim formasının prokurorluq orqanlarına mənsubiyyətinin daha dəqiq formada təsbit edilməsi, müvafiq icra hakimiyyəti orqanlarının əməkdaşlarının hərbi və xüsusi geyim formasının prokurorluq orqanları işçilərinin xüsusi geyim formasından fərqləndirilməsi, mövcud xüsusi geyim forması və fərqlənmə nişanlarının təkmilləşdirilməsidir.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Spiker Sahibə Qafarova bildirib ki, gündəliyin son 3 məsələsi də Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə yaxın qanun layihələridir.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (birinci oxunuş) təqdim edib. Diqqətə çatdırılıb ki, Miqrasiya Məcəlləsində əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün Azərbaycanda uzunmüddətli yaşamağın iki növü var - müvəqqəti və daimi yaşamaq. Müvəqqəti yaşamaq icazəsinin müddəti 1 ildir və bu, hər bir ildən bir artırıla bilər. İkinci ildən sonra həmin müvəqqəti yaşamaq hüququ olan şəxslərin daimi yaşamaq üçün hüququ yaranır. Daimi yaşamaq icazəsinin müddəti isə 5 ildir. Daimi yaşamaq icazəsi olan əcnəbi və vətəndaşlığı olmayan şəxslərin tək vətəndaşlıq adından başqa, digər Azərbaycan vətəndaşları kimi sosial, işləmək və pensiya hüquqları mövcuddur.

Bildirilib ki, birinci dəyişiklik müvəqqəti yaşamaq icazəsi ilə bağlıdır. Miqrasiya Məcəlləsinin 45-ci maddəsində edilən dəyişiklik əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan ərazisində müvəqqəti yaşamaq üçün icazənin verildiyi halları, həmin icazənin müddətinin uzadıldığı halları əhatə edəcək. Bu təklif ölkə daxilində miqrasiya proseslərinin təkmilləşdirilməsinə xidmət edir. Yeni redaksiyada verilmiş 45.1.2-ci maddədə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan ərazisində müvəqqəti yaşamaq üçün icazənin verilməsi şərtləri yumşaldılır. Qeyd edilib ki, 45.1.6-1-ci maddəsinə əsasən, Azərbaycanda təsis edilmiş və təsisçisi və ya təsisçilərdən ən azı biri xarici hüquqi və ya fiziki şəxs olan hüquqi şəxsin rəhbəri və onun müavini vəzifəsini tutan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan ərazisində müvəqqəti yaşamaq üçün icazə verilir. Həmin maddənin yeni redaksiyada verilməsi nəticəsində azı bir il Azərbaycanda müvəqqəti yaşamış əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvəqqəti yaşamaq üçün icazənin verilməsi şərtləri sərtləşdirilir.

Qeyd olunub ki, məcəlləyə əlavə edilən yeni 45.3-cü maddəyə əsasən, dövlət qiymətli kağızlarına və ya paylarının (səhmlərinin) 51 və daha artıq faizi dövlətə məxsus olan hüquqi şəxslərin investisiya qiymətli kağızlarına malik olmaqla, Azərbaycan ərazisində müvəqqəti yaşamaq üçün icazə almış şəxslərin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən 3 iş günü müddətində Milli Depozit Mərkəzinə göndərilir. Həmin siyahıda göstərilmiş şəxslərin mülkiyyətində olan investisiya qiymətli kağızlarının, o cümlədən dövlət qiymətli kağızlarının ümumi nominal dəyəri 100.000 manatdan aşağı düşdükdə və ya həmin qiymətli kağızlar özgəninkiləşdirildikdə Milli Depozit Mərkəzi bu barədə müvafiq icra hakimiyyəti orqanına 3 iş günü müddətində məlumat təqdim edir. 45-ci maddənin "Qeyd" hissəsində ediləcək dəyişiklikdən sonra ölkəmizdə sahibkarlıq fəaliyyətinin dövriyyəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi həcmdə olmalıdır, əcnəbi və vətəndaşlığı olmayan şəxs azı bir il Azərbaycan ərazisində müvəqqəti yaşamalıdır.

Nəzərə çatdırılıb ki, Miqrasiya Məcəlləsinin 52.1-ci maddəsi təkmilləşdirilərək yeni redaksiyada verilir. Belə ki, Azərbaycan ərazisində daimi yaşamaq icazəsinin əcnəbilərə ölkə ərazisində uzun müddət yaşamaq icazəsi almadan haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq, gələcəkdə Azərbaycan Respublikası vətəndaşlığının əldə edilməsi üçün müraciət etmək imkanı və digər geniş imkanlar yaradır. Bundan başqa, qabaqcıl ölkələrin təcrübələrinə əsasən, əcnəbilər yüksəkixtisaslı mütəxəssis və ya ərazisində olduğu ölkənin vətəndaşı ilə birinci dərəcəli yaxın qohum olarsa, həmin ölkə ərazisində daimi yaşamaq icazəsi almaq imkanı verilir. Bu baxımdan qohumluq münasibətlərinə görə daimi yaşamaq icazəsinin alınması üzrə qohumların dairəsinin məhdudlaşdırılması və yalnız müraciət edən şəxsin atası, anası, əri (arvadı), övladı, bacısı və ya qardaşı Azərbaycan vətəndaşı olduqda daimi yaşamaq icazəsi ala bilməsi təklif olunur.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

İclasda son olaraq "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi (birinci oxunuş) və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi (birinci oxunuş) barədə qanun layihələri müzakirə olunub. Bildirilib ki, bu qanun layihələri Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə uyğun olaraq hazırlanıb.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.-25 fevral.- S.1; 2.